## ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİ VƏ İZAHLI QEYDLƏR

Yeni Azərbaycan Partiyası (bundan sonra mətndə "Partiya") Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət və azad vətəndaş cəmiyyəti qurmaq məqsədi ilə irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən asılı olmayaraq Azərbaycan vətəndaşlarını ümumi siyasi ideya və məqsəd ətrafında birləşdirən, ölkənin siyasi həyatında iştirak edən qeyri-kommersiya hüquqi şəxsdir.

Partiya öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu, digər qanunvericilik aktları və öz Nizamnaməsi əsasında həyata keçirir.

Birləşmək (assosiasiyalar) azadlığı, könüllülük, partiya üzvlərinin hüquq bərabərliyi, özünüidarə, qanunçuluq və aşkarlıq Partiyanın fəaliyyət prinsipləridir.

Partiyaya üzvlük fərdidir.

Yeni Azərbaycan Partiyası 18 dekabr 1992-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçmişdir.

Partiya Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyata alınmışdır (VÖEN 1500150281).

2021-ci ilin sonuna Partiya üzvlərinin sayı 757097 nəfər (2020-ci ilin sonuna 750962 nəfər) olmuşdur.

Hesabat dövrü ərzində işçilərin orta sayı 674 nəfər təşkil etmişdir.

Partiyanın hüquqi ünvanı–AZ1000, Bakı şəhəri, Xətai rayonu, S.Senyuşkin küçəsi 26.

## ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİ

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir.

### 1. Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları

Partiyanın maliyyə hesabatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 noyabr 2012-ci il tarixli 263 saylı qərarı ilə təsdiq edilmiş "Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə Qaydası"na uyğun tərtib edilmişdir.

Bu maliyyə hesabatında Partiyanın Mərkəzi Aparatının və 76 rayon (şəhər) təşkilatının 2020 və 2021-ci illər üzrə iqtisadi ehtiyatları və öhdəlikləri barədə məlumatlar, əlaqədar dəyişikliklər əks etdirilmişdir.

### 2. Valyutaların yenidən hesablanması

*a) Funksional valyuta və hesabat valyutası*

Maliyyə hesabatlarında bütün məbləğlər funksional valyuta olan Azərbaycan Respublikası manatı ilə göstərilir.

*b) Əməliyyatlar və qalıqlar*

Xarici valyuta ilə əməliyyatlar əməliyyat tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir.

Xarici valyutada olan pul vəsaitləri və borcların qalıqları hesabat tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir.

## 3. Torpaq, tikili və avadanlıq

Torpaq, tikili və avadanlıqlar inzibati məqsədlər və icarəyə verilmək üçün istifadə edilən və istifadə müddəti bir hesabat dövründən artıq olan maddi qiymətlilərdir.

Partiyanın balansında ayrıca torpaq sahəsi yoxdur.

Qalan bütün tikili və avadanlıqlar ilkin dəyərlərindən azalan qalıq metodu ilə amortizasiya ayırmaları çıxılmaqla maliyyə hesabatlarında əks etdirilir. İlkin dəyərə bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərclər daxil edilir.

Sonrakı xərclər aşağıdakı hallarda aktivlərin dəyərinə aid edilir və ya ayrıca aktiv kimi tanınır: çəkilmiş xərc nəticəsində tikili və avadanlıqların ilkin texniki göstəricilər ilə müqayisədə istifadə müddəti və ya keyfiyyəti artırılırsa (təkmilləşdirilmə, müasirləşdirilmə, yeniləşmə) və dəyəri etibarlı şəkildə müəyyən edilə bilərsə. Digər təmir xərcləri, servis xidmətləri, istismarla bağlı xərclər isə tikili və avadanlıqların dəyərinə daxil edilməyərək dövrün xərclərinə aid edilir.

Tikili və avadanlıqlar üzrə amortizasiya ayırmaları, bu aktivlərin faydalı istifadə müddətindən asılı olaraq, onların ilkin dəyərindən ləğvetmə dəyərinə qədər azalan qalıq dəyəri metodu üzrə həyata keçirilir:

- Binalar, qurğular — illik 7%-dək;
- Maşın avadanlıq — illik 20%-dək;
- Nəqliyyat vasitələri — illik 25%-dək;
- Mebel və təsərrüfat inventarları — illik 20%-dək;
- Digər — illik 20%-dək.

Aktivlərin ləğvetmə dəyəri və onların faydalı istifadə müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövründə müvafiq qaydada nəzərə alınır.

Tikili və avadanlıqların xaricolmasından mənfəət və zərərlər həmin tikili və avadanlıqların satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər "Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat"da əks etdirilir.

## 4. Daşınmaz əmlaka investisiyalar

Hesabat dövründə və əvvəlki hesabat dövründə Partiyanın bu kateqoriya üzrə heç bir investisiyası olmamışdır.

## 5. Ehtiyatlar

Ehtiyatların dəyəri maya dəyəri üzrə əks etdirilir. Sərf edilmiş ehtiyatlar üzrə məsrəflər FİFO metodu ilə müəyyən edilir.

## 6. Qısamüddətli debitor borcları

Hesabat tarixindən sonra 12 ay müddətində ödənilməsi gözlənilən debitor borclardır. Debitor borclarına üzvlük haqları üzrə borclar, eləcə də xidmətlərin, malların təqdim edilməsinə və işlərin görülməsinə görə olan borclar daxil edilir.

## 7. Pul vəsaitləri və onların ekvivalentləri

Kassada və bank hesablarında olan pul vəsaitləri Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks olunur.

## 8. Sair qısamüddətli aktivlər

Sair qısamüddətli aktivlərə verilmiş qısamüddətli avanslar daxil edilir.

## 9. Gəlirlər

Gəlirlər əməliyyatların baş verdiyi anda müvafiq hesabat dövründə tanınaraq, maliyyə hesabatlarında əks etdirilir. Partiyanın gəlirlərinə aşağıdakılar daxil edilir:

- Üzvlük haqları;
- Əmlakdan götürülən gəlir;
- Tədbirlərdən, mətbu nəşrlərin və məqalələrin yayılmasından, gəlirlə bağlı olan başqa fəaliyyətdən götürülən gəlir;
- İanələr şəklində gəlir;
- Seçki kampaniyası üçün xərclərin ödənilməsi şəklində daxil olan vəsait;
- Aşağı təşkilatların ödəncləri;
- Dövlət büdcəsindən ayrılan vəsait;
- Borcun və ya kreditin alınmasından əldə edilmiş məbləğ;
- Hüquq varisliyi və ya vərəsəlik yolu ilə əldə edilmiş əmlak;
- Digər gəlirlər.

Partiya üzvlərinin üzvlük haqqı məbləğini Yeni Azərbaycan Partiyasının İdarə Heyəti müəyyən edir.

## 10. Xərclər

Xərclər təsərrüfat əməliyyatlarının yerinə yetirilməsi ilə bağlı vəsaitlərin və onların ekvivalentlərinin xaric olması zamanı deyil, bu əməliyyatların baş verdiyi anda müvafiq hesabat dövründə tanınaraq, maliyyə hesabatlarında əks etdirilir.

"Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat"da xərclər aşağıdakı maddələr üzrə ümumiləşdirilir:

- Cari işlərə sərf olunan vəsait;
- Siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər;
- İctimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər;
- Aşağı təşkilatlara ödənclər;
- Kreditlər üzrə faizlər;
- Fərdi xərclər;
- Sair xərclər.

## 11. Kreditor borcları və öhdəliklər

Kreditor borcları və öhdəliklər maliyyə hesabatlarında ilkin dəyərləri ilə əks etdirilir.

## 12. Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər

Partiya qeyri-kommersiya təşkilatıdır və Azərbaycan Respublikası vergi qanunvericiliyinə müvafiq olaraq, mənfəət vergisi, əmlak vergisi və əlavə dəyər vergisi ödəyicisi deyildir.

Partiya vergi qanunvericiliyinin müddəalarına uyğun fiziki şəxslər üzrə gəlir vergisini, hüquqi və fiziki şəxslər üzrə ödəmə mənbəyindən tutulan vergiləri, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq məcburi dövlət sosial sğorta haqlarını, "Tibbi sğorta haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq icbari tibbi sığorta haqlarını, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq işsizlikdən sığorta haqlarını hesablayır və müvafiq qaydada aidiyyəti üzrə ödəyir.

## 13. Xalis aktivlər (kapital) və öhdəliklər

Partiyanın fəaliyyəti dövründə hesablanmış xalis mənfəəti "Maliyyə vəziyyəti haqqında hesabat"ın "Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" maddəsinə daxil edilir.

## İZAHLI QEYDLƏR:

## 1. TORPAQ, TİKİLİ VƏ AVADANLIQ

| | Bina və qurğular | Maşın və avadanlıqlar | Nəqliyyat vasitələri | Mebel və ofis inventarları | Digər | Cəmi torpaq, tikili, avadanlıqlar |
|---|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | | |
| **31 dekabr 2020-ci il** | **19 307 730** | **800 617** | **1 857 610** | **3 321 286** | **147 700** | **25 434 943** |
| ✓ Daxilolmalar | - | 71 397 | 229 882 | 6 459 | 21 500 | 329 238 |
| ✓ Xaricolmalar | - | (6 056) | (171 000) | | | (177 056) |
| **31 dekabr 2021-ci il** | **19 307 730** | **865 958** | **1 916 492** | **3 327 745** | **169 200** | **25 587 125** |
| **Yığılmış amortizasiya məbləği** | | | | | | |
| **31 dekabr 2020-ci il** | **(1 752 102)** | **(279 191)** | **(1 135 157)** | **(1 577 728)** | **-** | **(4 744 178)** |
| ✓ Amortizasiya ayırmaları | (872 366) | (15 908) | (100 449) | (169 668) | - | (1 158 391) |
| ✓ Xaricolmalar | | 1 916 | 165 782 | | | 167 698 |
| **31 dekabr 2021-ci il** | **(2 624 468)** | **(293 183)** | **(1 069 824)** | **(1 747 396)** | **-** | **(5 734 871)** |
| **Xalis balans dəyəri** | | | | | | |
| - **31 dekabr 2020-ci il** | **17 555 628** | **521 426** | **722 453** | **1 743 558** | **147 700** | **20 690 765** |
| - **31 dekabr 2021-ci il** | **16 683 262** | **572 775** | **846 668** | **1 580 349** | **169 200** | **19 852 254** |

## 2. EHTİYATLAR

| | 2021 | 2020 |
|---|---|---|
| Material ehtiyatları | 1 460 | - |
| Digər ehtiyatlar | 68 573 | - |
| **Cəmi ehtiyatlar** | **70 033** | **-** |

## 3. QISAMÜDDƏTLİ DEBİTOR BORCLARI

| | 2021 | 2020 |
|---|---|---|
| Üzvlük haqları üzrə qısamüddətli debitor borcları | 103 093 | 59 201 |
| **Cəmi qısamüddətli debitor borcları** | **103 093** | **59 201** |

## 4. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 2021 | 2020 |
|---|---|---|
| Bank hesablarında milli valyuta ilə pul vəsaitləri | 9 545 140 | 6 190 255 |
| Bank hesablarında xarici valyuta ilə pul vəsaitləri (funksional valyutada) | 32 036 | 31 830 |
| Banklarda yerləşdirilmiş depozitlər | 60 000 | 145 000 |
| Kassa | 4 | - |
| **Cəmi pul vəsaitləri** | **9 637 180** | **6 367 085** |

## 5. SAİR QISAMÜDDƏTLİ AKTİVLƏR

| | 2021 | 2020 |
|---|---|---|
| Məcburi dövlət sosial sığorta haqqı üzrə ödənilmiş avans | 5 317 | - |
| Malsatan və podratçılara verilmiş qısamüddətli avanslar | 320 | - |
| Digər | 228 | - |
| **Cəmi sair qısamüddətli aktivlər** | **5 865** | **-** |

## 6. EHTİYAT FONDU

| | 2021 | 2020 |
|---|---|---|
| Dövrün əvvəlinə | 11 550 039 | 11 550 039 |
| "Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" maddəsinə keçirilmişdir | (11 550 039) | - |
| **Dövrün sonuna** | **-** | **11 550 039** |

Əvvəlki illər üzrə hesabatların "Ehtiyat fondu" sətrində səhvən göstərilmiş məbləğlərin "Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" sətrində düzgün əks etdirilməsi təmin edilmişdir.

## 7. BÖLÜŞDÜRÜLMƏMİŞ MƏNFƏƏT (ÖDƏNİLMƏMİŞ ZƏRƏR)

| | 2021 | 2020 |
|---|---|---|
| Dövrün əvvəlinə | 15 534 978 | 13 771 863 |
| Ehtiyat fondundan | 11 550 039 | - |
| Hesabat dövrü üzrə mənfəət | 2 506 784 | 1 763 115 |
| **Dövrün sonuna** | **29 591 801** | **15 534 978** |

## 8. SAİR UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR

| | 2021 | 2020 |
|---|---|---|
| Faiz xərcləri yaratmayan kredit üzrə öhdəlik | 3 062 | - |
| **Cəmi sair uzunmüddətli öhdəliklər** | **3 062** | **-** |

## 9. VERGİ VƏ SAİR MƏCBURİ ÖDƏNİŞLƏR ÜZRƏ ÖHDƏLİKLƏR

| | 2021 | 2020 |
|---|---|---|
| Vergi öhdəlikləri | 2 300 | - |
| Sosial sığorta və təminat üzrə öhdəliklər | 22 060 | 15 628 |
| **Cəmi vergi və məcburi ödənişlər üzrə öhdəliklər** | **24 360** | **15 628** |

## 10. QISAMÜDDƏTLİ KREDİTOR BORCLARI

| | 2021 | 2020 |
|---|---|---|
| Malsatan və podratçılar üzrə qısamüddətli kreditor borcları | 23 425 | - |
| İşçi heyətinə qısamüddətli kreditor borcları | 8 029 | 16 406 |
| İcarə üzrə qısamüddətli kreditor borcları | 3 200 | - |
| Digər qısamüddətli kreditor borcları | 7 200 | - |
| **Cəmi qısamüddətli kreditor borcları** | **41 854** | **16 406** |

## 11. SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

| | 2021 | 2020 |
|---|---|---|
| Faiz xərcləri yaratmayan kredit üzrə öhdəlik | 7 348 | - |
| **Cəmi sair qısamüddətli öhdəliklər** | **7 348** | **-** |

## 12. ÜZVLÜK HAQLARI

| | 2021 | 2020 |
|---|---|---|
| Üzvlük haqları | 11 026 276 | 10 346 294 |
| **Cəmi üzvlük haqlarından gəlirlər** | **11 026 276** | **10 346 294** |

## 13. ƏMLAKDAN GÖTÜRÜLƏN GƏLİR

| | 2021 | 2020 |
|---|---|---|
| İcarədən gəlir | 14 500 | - |
| Əmlak satışından xalis gəlir | 204 727 | - |
| **Cəmi əmlakdan götürülən gəlir** | **219 227** | **-** |

## 14. DÖVLƏT BÜDCƏSİNDƏN AYRILAN VƏSAİT

| | 2021 | 2020 |
|---|---|---|
| Dövlət büdcəsindən ayrılan vəsait | 1 888 232 | 1 942 414 |
| **Cəmi dövlət büdcəsindən ayrılan vəsait üzrə gəlirlər** | **1 888 232** | **1 942 414** |

## 15. DİGƏR GƏLİRLƏR

| | 2021 | 2020 |
|---|---|---|
| Digər gəlirlər | 22 565 | 1 787 |
| **Cəmi digər gəlirlər** | **22 565** | **1 787** |

## 16. CARİ İŞLƏRƏ SƏRF OLUNAN VƏSAİT

| | 2021 | 2020 |
|---|---|---|
| Avtonəqliyyat xərclərinə (yanacaq, ehtiyat hissələri) | - | 302 193 |
| Təmir məsrəfləri | 99 588 | 162 621 |
| Kommunal və təsərrüfat xərclərinə | - | 457 567 |
| İcarə, mühafizə xidmətinə, audit, təqaüd, maddi yardım, komp.tex. xidmət, abunə və digər xərclər | - | 230 856 |
| Abunə haqları | - | 86 611 |
| Vətən müharibəsi ilə əlaqədar fondlara və humanitar aksiyalara | - | 452 599 |
| Koronavirusa qarşı mübarizəyə dəstək fonduna və humanitar aksiyalara | - | 625 148 |
| Ezamiyyə məsrəfləri | 108 397 | - |
| Tədbirlərin təşkili üzrə çəkilən xərclər | 210 707 | - |
| Silinmiş uzunmüddətli aktivlərin qalıq dəyəri | 1 296 | - |
| Sərf edilmiş ehtiyatlar üzrə məsrəflər | 26 698 | - |
| Digər məsrəflər | 44 920 | - |
| **Cəmi** | **491 606** | **2 317 595** |

## 17. SİYASİ PARTİYANIN SAXLANMASINA VƏ İNFORMASİYA TƏMİNATINA ÇƏKİLƏN XƏRCLƏR

| | 2021 | 2020 |
|---|---|---|
| Hesablanmış əmək haqqı | 6 088 989 | 5 762 382 |
| Məcburi dövlət sosial sığorta haqqı, işsizlikdən sığorta, icbari tibbi sığorta haqları üzrə ayırmalar | 970 477 | 1 207 364 |
| Ezamiyyə | - | 34 357 |
| Çap işlərinə | - | 144 611 |
| Kommunal | 328 385 | - |
| Mühafizə xidməti | 65 019 | - |
| Bank xidməti | 78 390 | 80 739 |
| Tikili və avadanlıqların saxlanılması və onlara texniki xidmət | 4 200 | - |
| Sərf edilmiş dəftərxana və təsərrüfat ehtiyatları üzrə | 128 603 | 57 721 |
| İstifadə edilmiş yanacaq və sürtkü materialları üzrə | 267 188 | - |
| Uzunmüddətli aktivlərin amortizasiyası | 1 158 391 | - |
| Rabitə | 66 832 | - |
| İcarə | 9 147 | - |
| İcbari sığorta | 6 236 | - |
| Digər | 23 296 | - |
| **Cəmi** | **9 195 153** | **7 287 174** |

## 18. İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRƏ VƏ SEÇKİLƏRİN KEÇİRİLMƏSİNƏ ÇƏKİLƏN XƏRCLƏR

| | 2021 | 2020 |
|---|---|---|
| Tədbirlərin keçirilməsi xərcləri | - | 347 569 |
| **Cəmi** | **-** | **347 569** |

## 19. KREDİTLƏR ÜZRƏ FAİZLƏR

| | 2021 | 2020 |
|---|---|---|
| Kredit ödənişi | - | 6736 |
| **Cəmi** | **-** | **6736** |

## 20. FƏRDİ XƏRCLƏR

| | 2021 | 2020 |
|---|---|---|
| Nümayəndələrin (qonaqların) xərcləri | 52 023 | - |
| **Cəmi** | **52 023** | **-** |

## 21. SAİR XƏRCLƏR

| | 2021 | 2020 |
|---|---|---|
| Tikili və avadanlıqların amortizasiyası | - | 568 306 |
| Xeyriyyəçilik fəaliyyəti ilə bağlı xərclər | 380 828 | - |
| Verilmiş hədiyyələr | 5 307 | - |
| Mükafatlandırma və maddi yardımlar | 9 600 | - |
| Qarabağ Dirçəliş Fonduna və digər dəstək məqsədli köçürmələr | 507 799 | - |
| Digər | 7 200 | - |
| **Cəmi** | **910 734** | **568 306** |

## 22. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMIŞ HADİSƏLƏR

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcək hadisələr baş verməmişdir.

**Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri** **Budaqov T. Y.**

**Maliyyə-təsərrüfat şöbəsinin müdiri - baş mühasib** **Hüseynov N. M.**